# Şair-əsgər

## *Azərbaycan əsgərinin şücaətindən bəhs edən kitab*

2023-cü il yanvar ayında Türk DünyasıAraşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru, siyasi elmlər üzrə fəlsəfə doktoru, polkovnikCəlil Xəlilovun, “Xudafərin” qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, dosentŞakir Albalıyevin məsləhətilə,Mərcan Şahbuzlunun redaktorluğu ilə gənc yazar Səlimli Göyərçin Çələbinin tərtib etdiyi “Şair-əsgər”adlı kitab üşıq üzü görmüşdür. Kitab 2020-ci ildə 44 günlük Vətən müharibəsində şəhid olmuş Səbuhi Əsədovun həyatı və döyüş yolundan bəhs edir. Oxucuların diqqətinə əslən Cəbrayıl rayonundan olan Səbuhi Əsədovun ailəsinə məxsus albomdan fotoşəkillər, yaxınları, dostları və döyüş yoldaşlarının xatirələri, bədii sənət nümunələri, eləcə də sənədli materiallar təqdim olunur. Geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş kitab Səbuhi Əsədovun dünyaya göz açmasısının 24-cü ildönümü münasibəti ilə hazırlanmışdır. “Azərbaycanın fədakarlıq məktəbi” silsiləsi çərçivəsindəSəbuhi Əsədov haqqındabu ikinci kitabdır. Göyərçin Çələbieləcə də birinci kitabın həmmüəllifidir. Birinci kitab 2022-ci ilin dekabr ayında işıq üzü görmüş, təqdimatı 26.12.2022-ci il tarixdə Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında keçirilmişdir. “Şair-əsgər” adlı ikinci kitab Səbuhi Əsədovun dünyaya göz açdığı gün - 19.01.2023-cü il tarixində Azərbaycan Atatürk Mərkəzində respublika ictimaiyyətinə təqdim olunmuşdur. Şəhidin ailəsi, yaxınları döyüş yoldaşları kitabı ərsəyə gətirənlərə, onun təqdimatını təşkil edənlərə minnətdarlıq edir. Xüsusilə Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilovun bizi böyük diqqət və qayğı ilə əhatə etməsini vurğulamaq istərdik. “Şair-əsgər” kitabının yaradıcı heyəti ilə görüş yaxın günlərdə Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında keçiriləcəkdir. “Azərbaycanın fədakarlıq məktəbi” silsiləsinin əsasını qoymuş və birinci kitabın həmmüəllifi Azər Hacıbəyliyə, “Şair-əsgər” kitabının təqdimatını və şəhidin xatirəsinə həsr olunmuş tədbiri yüksək səviyyədə təşkil etdiyinə görə respublika ictimaiyyətinin yaxından tanıdığı Könül xanım Verdiyevaya təşəkkür edirik. Kitabda Nərimanov Rayon Ağsaqqallar Şurasının sədri, el-oba təəssübkeşi, dəyərli ziyalı Arif Hümbətovun (Vətən Müharibəsi Qəhrəmanı şəhid Azad Hümbətovun atası) qiymətli fikirləri yer almışdır: “Azərbaycan əsgərinin şücaəti geniş miqyasda tanıdılmalıdır. Şəhidin həyat və döyüş yoluna işıq salınması, onun mükafatları və əlamətdar məqamların, haqqında qohumlarının, yaxınlarının, onu tanıyanların xatirələrinin, dövlət təltiflərinin, fəxri fərmanların, ailə albomundan fotoşəkillərin burada ətraflı əks olunması təqdirəlayiqdir. 44 günlük döyüşdə əksəriyyəti gənc övladlarımız olan əsgər və zabitlərimiz canlarını torpaq uğrunda fəda etdilər. Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev ətrafında dəmir yumruq kimi sıx birləşərək xalqımız vətənpərvərliklə, ordumuz ilə həmrəyliklə 30 il həsrətində qaldığımız torpaqlarımızı azad etdi. 3000-ə yaxın şəhidimiz var, Allah onlara rəhmət eləsin, 1700-ə kimi qazimiz var, Allah onlara can sağlığı versin. Şükürlər ki, 1990-cı illərdən başlayan müharibədə şəhid olmuş əzizlərimizin qanı yerdə qalmadı. Biz 44 günlük müharibədən alnıaçıq, başıuca çıxdıq”. 21 yaşında şəhidlik zirvəsinə ucalmış Səbuhi Əsədov şeir yazırdı. “Fəryad” şeirindən:




Bir anda büründü hər yan tüstüyə,
İnsan necə dözsün belə istiyə.
Öldü günahsızca on altı nəfər,
Xalqımı bürüdü, hüzn və kədər.
Bəzisi boğuldu zəhərli hisdən,
Onlar dörd körpəni ayırdı bizdən.
İndi göylərdə hərəsi bir mələk,
Qəddar olduğunu göstərdi fələk.
Altmış beş yaralı can hayındadı,
Dəhşətli faciə may ayındadı.
Allahım versin hər kəsə səbir,
Qəlblərə yazıldı hamısı bir-bir.
Artıq adambaşı milyon da versən,
Qaytara bilərmi ölən canları?
Günahkar kimlərdi bir yolla bilsəm,
Qoymazdım damarda axsın qanları.
Daha nə yazım ki, nə söyləyim mən?
Sinəndə bir ağrı ürəyimdə qəm.
Lazım deyil bizə belə bər-bəzək,
Tanrım, bu xalqıma özün ol kömək.
Səbuhiyəm, gərək deyim sözümü,
Şair də deyiləm, bilin düzünü.
Deməyin, bu kimdi, bir dəryadımı,
Sadəcə eşidin, siz fəryadımı.

Kitabda həmçinin onun yaxınlarının, müəllimlərinin və digər yaradıcı ziyalılarımızın şeirləri və məqalələri yer almışdır.

Səbuhi Əsədovun komandiri olmuş Orxan Cəlilovun xatirələrindən: “Mən Mingəçevirdə N saylı hərbi hissədə xidmət edirdim. Taqım komandiri vəzifəsində.Muharibədən bir az əvvəl Səbuhi bizim bölüyə eyni hərbi hissənin kəşfiyyat bölüyündən gəldi. Qısa müddət ərzində əsgər, gizir və zabit kollektivi arasında hörmət-izzət qazanmağa başladı. Öz hərbi intizamı ilə, savadı ilə, düşüncə tərzi ilə. Ağıllı əsgər idi. Uzaq gorməyi var idi. Xidmətdən kənarda isə əsl dostluq, yoldaslıq ediləsi insan idi. Müharibənin ilk günü Tərtərdən başladıq, sentyabr ayının 27-si idi. Biz müharibəyə Tərtər rayonunun Çaylı kəndindən başladıq. İlk döyüşümüz orada oldu. Tərtər rayonu Çaylı kəndində şəhidlərimiz oldu. Bir komandirimiz var idi, kapitan Quliyev Şahmar, döyüşün ilk günündə orda şəhid oldu. Taqım komandiri, yoldaşım var idi, bölüyümüzün leytenantı Zeynalov Məhəmməd var idi, o da Tərtərdə şəhid oldu, ondan sonra Səbuhinin əsgər yoldaşı Allahverdiyev Allahverdi ilk gündə şəhid oldu. Döyüşün ilk günündə yoldaşlarımızı itirməyimiz hamımızda düşmənə nifrəti ikiqat artırmışdı. Hamımızda bir amal var idi, şəhidlərimizin - yoldaşlarımızın qanını yerdə qoymamaq, öz torpaqlarımızı işğaldan azad edib düşməni məhv etmək arzusu idi. Səbuhi də o əsgərlərdən idi ki, döyüs vaxtı, döyüşdən sonra yaxınlaşırdı ki, komandir, Cəbrayıla hələ çox var? Mən öz torpağımı görmək istəyirəm, o dədə-baba torpağıma ayaq basmaq istəyirəm. Sonra döyüşümüz Talış kəndi istiqamətində olub. Səbuhi düsmənə qan uddururdu. Səbuhi ixtisasca qumbaraatan köməkçisi idi, bölmədə. Amma şəxsən özü, qumbaraatan ilə düşmən movqelərini atəşə tuturdu, sığınacaqlarını dağıdırdı. Səbuhi ilə axırıncı döyüşümüz Suqovuşanda, 530 yüksəkliyi deyilən yerdə olmuşdu, bizim tabor orda düşmən mövqeyini, düşmənin bölük-dayaq məntəqəsini ələ keçirtmisdik, amma düşmənin uzaq məsafədən olan snayperləri imkan vermirdi ki, biz mövqedə möhkəmlənək. Və tabor da düşmənin snayperlərinin pusqusuna düşmüşdü. Səbuhi bilirdi ki, oradan qumbaraatanla atsa şəhidlik zirvəsinə yüksələcək, amma o şəhidlik zirvəsini seçdi”.

Qumbaraatanla düşmənə zərbələr endirərək düşmənin atəş mövqelərini, snayperlərini və PK pulemyot nöqtələrini susdura bildi.Tabor oradan çıxa bildi, amma düşmən snayperinin gülləsinə tuş gəldi və gözündən girən güllə Səbuhinin həyatına son qoydu”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Səbuhi Əsədov (ölümündən sonra) 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda”, “Cəsur döyüşçü” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

*Ülviyyə* Əbülfəzqızı ,
*şair-publisist*